Ən böyük cihadlardan biri, zalım hökmdar qarşısında ədaləti söyləməkdir”

Əbu Səid Əl-Xudridən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Ən böyük cihadlardan biri, zalım hökmdar qarşısında ədaləti söyləməkdir”.

[حسن لغيره] [Əbu Davud, Ət-Tirmizi, İbn Məcə, Əhməd rəvayət ediblər]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, Uca Allah yolunda cihadın ən böyük və ən faydalı növlərindən biri ədalətsiz və zalım hökmdar və ya rəhbərin qarşısında ədalət və haqq sözünü deməkdir. Çünki o, istər sözlə, istər yazı ilə, istər əməllə və ya məsləhətin əldə edildiyi, məfsədənin uzaqlaşdırıldığı hər hansı bir şeylə də olsa, yaxşılığı əmr edib pislikdən çəkindirmək şüarının yerinə yetirilməsidir.

http://www.sunnah.global/hadeeth/az/show/3045